UOT 336

Rahibə Xəlil qızı ƏBDÜLHƏSƏNOVA
Naxçıvan Dövlət Universitetinin müəllimi, doktorant
E-mail: abdulhasanovarahiba@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.006

“YAŞIL” İQTİSADİYYATA KEÇİDİ TƏMİN EDƏN İNVESTİSİYALAŞMA PROSESİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN KONSEPTUAL PROBLEMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - davamlı iqtisadi inkişafa nail olunması üçün müəyyən transformasiya prosesinin baş verməsinə, xüsusilə "yaşıl" və aşağı karbon iqtisadiyyatına keçidi təmin etmək üçün böyük investisiyaların cəlb edilməsinə tələbin vacibliyinin müəyyən edilməsidir. Bu sahəyə dövlət investisiyalaşması ilə yanaşı özəl investisiyaların cəlb edilməsində ölkələrin müxtəlif dəstək və təşviq mexanizmlərindən istifadə etməsinin zəruriliyi əsaslandırılmışdır.

Tədqiqatın metodologiyası - Tədqiqat işində investisiya qoyuluşunun vacibliyini şərtləndirən amiləri aşkar etmək üçün müqayisəli təhlili, sintez, ümumiləşdirmə, müqayisəli təhlil və s. metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Dünya ölkələrində yaşıl iqtisadiyyata keçid zamanı investisiya qoyuluşunun qiymətləndirilməsi istiqamətində müxtəlif təcrübə və yanaşmalar formalaşdırılmışdır. Əldə edilmiş nəticələrdən bu istiqamətli problemlərin tədqiqi zamanı istifadə edilə bilər.

Təqdiqatın nəticələri - "yaşıl" iqtisadiyyat dünya və Azərbaycanın iqtisadi inkişafının əsas strateji istiqaməti olmaqla beynəlxalq miqyasda ölkələrin ekoloji münasibətlərinin prioriteti kimi "yaşıl" iqtisadiyyatın inkişafına imkan verən normativ-hüquqi aktların yaradılması zərurətini ortaya qoyur. Azərbaycanda qəbul edilmiş “Yaşıl” iqtisadiyyat strategiyası ölkəmizin uzunmüddətli perspektivdə dayanıqlı inkişaf modeli olmaqla yaşıl enerji istehsalı potensialından səmərəli istifadə yeni layihələr çərçivəsində müxtəlif müqavilələrin bağlanılması və gələcəkdə istehsal olunmuş müxtəlif enerji ticarətinin təşkil edilməsi üçün əlverişli şərait yaratmaqla maksimum səviyyədə yararlanmağa imkan verəcəkdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - beynəlxalq çərçivədə investisiyalaşma prosesinin həyata keçirilməsi üçün yeni növ enerjilərin istehsalının yüksəldilməsi meyarları müəyyən edilir və geniş təhlil edilir. Müxtəlif ölkələr, o cümlədən Azərbaycan üçün yeni enerji istehsalına investisiyalaşma prosesinin əsas problemləri müəyyən edilir və onların həlli yolları təklif olunur.

Açar sözlər: yaşıl iqtisadiyyat, davamlı inkişaf, investisiyalaşma prosesi, yeni növ enerji istehsalı, strateji istiqamətlər.

Giriş

Dünyada baş verən iqtisadi inkişaf istehsal və istehlakın davamlı artması ilə müşayiət olunur. Sivilizasiyanın mövcud olduğu dövrə nisbətən son yarım əsrdə daha çox həcmdə məhsul istehsal edilmişdir. Bir tərəfdən daha çox məhsul istehsalının sürətli inkişafı əhalinin rifah halının yüksəlməsinə kömək edir, digər tərəfdən -ekologiyaya mənfi təsir göstərir.

1972-ci ildə BMT ilk dəfə ətraf mühitin qorunması və sosial ədalətlə iqtisadi inkişaf şərtlərini müzakirə edən insan mühiti üzrə konfrans təşkil etmişdir. 1988-ci ildə BMT-nin himayəsi altında yaradılan İqlim Dəyişikliyi üzrə Hökumətlərarası panel, iqlim dəyişikliyinin əsas səbəbinin cəmiyyətdə insanların iqtisadi fəaliyyəti olduğuna dair lazımlı dəlillər təqdim etmişdir. Əldə olunan məlumatlar əsasında BMT-nin İqlim Dəyişikliyi Çərçivə Konvensiyası (1992), Kyoto protokolu (1997) və Paris Sazişi (2015) qəbul edilmişdir. Paris Sazişində iştirak edən 197 ölkə XXI əsrdə qlobal temperaturun +2 0 C artma və - 1,50 C azalma hüdudunda məhdudlaşdırılması yollarını axtarmağa razılıq verilməsinə nail olunmuşdur [14, s.111-113].

Mövcud ədəbiyyatlara istinad

Qlobal miqyasda baş verən iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası daha davamlı

iqtisadiyyata ehtiyac duyulduğunu ortaya çıxartdı. Bu isə bir çox ölkələrin, o cümlədən inkişaf etməmiş ölkələrin iqtisadiyyatının daha davamlı inkişafa nail olunması üçün müəyyən transformasiya prosesinin baş verməsinə, xüsusilə "yaşıl" və aşağı karbon iqtisadiyyatına keçidi təmin etmək üçün böyük investisiyaların cəlb edilməsini tələb edir. Nəzərə alsaq ki, dünya miqyasında böyük həcmdə investisiyaların iqtisadiyyata cəlb edilməsinin maliyyələşdirilməsi prosesinin ödənilməsi ehtiyacı yalnız dövlət sektorunun iştirakı deyil, bu məqsədli investisiyaların icrasına bir çox ölkələrdə özəl sektorun cəlb olunmasına imkan verən problemlər araşdırılıb tapılmaqla onların həlli yolları da tapılmışdır [10, s. 432-437].

Kodanova C.İ. öz tədqiqatlarında qeyd edir ki, “yaşıl” iqtisadiyyata keçid həm yeni texnologiyaların inkişafını, həm də istehsalın ekoloji təmizliyini artırmaq üçün mövcud müəssisələrin əsas vəsaitlərinə əhəmiyyətli investisiyaların cəlb edilməsinin vacibliyini şərtləndirir. Bu sahəyə özəl investisiyaların cəlb edilməsi üçün dövlətlər müxtəlif dəstək və təşviq mexanizmlərindən istifadə edirlər. Ancaq düşünülməmiş tədbirlər gözlənilən nəticəni verə bilməz və ya hətta mənfi təsir göstərə bilər. Məhdud dövlət büdcəsi ilə davamlı inkişaf məqsədlərinə çatmaq üçün təşviq siyasətinin düzgün seçilməsi çox vacibdir [8, s.1-12]. Fikrimizcə, tədqiqatçının əldə etdiyi nəticə ilə razılaşmaq olar. Çünki, hazırkı şəraitdə Azərbaycan birinci növbədə işğaldan azad edilmiş regionlarda bu məsələlərin düzgün təşkil edilməsinə, oradakı mövcud şəraitdən istifadə edərək bərpa olunan enerji mənbələrinin qurulmasına, talan edilmiş yaşayış evlərinin yerində ərazilər üzrə ağıllı şəhər və kəndlərin qurulmasına investisiya yatırımını təmin edir ki, bu da birbaşa orada yeni məskunlaşan əhalinin məşğulluq səviyyəsinin təmin edilməsinə istiqamətləndirilməklə onların həyat səviyyəsinin yüksəldilməsinə dövlətin atdığı zəruri addım kimi qiymətləndirilir.

Selishcheva T. A. tədqiqatında “yaşıl” iqtisadiyyata keçid ehtiyacını təhlil edərək belə bir nəticəyə gəlir ki, bu istiqamətdə lazımi nəticələr əldə etmək üçün ilk mərhələdə tədqiq edilən Avrasiya İqtisadi Birliyi (AİB) ölkələrində iqtisadiyyatın inkişafının əsas istiqamətlərini və perspektivlərini, “yaşıl” iqtisadiyyata keçid strategiyalarının formalaşması xüsusiyyətlərini və problemlərini aşkar etmək, növbəti mərhələdə isə onların həlli mexanizmlərini müəyyənləşdirmək məqsədəuyğundur. AİB dövlətlərinin ciddi ekoloji problemləri mövcuddur, onların həlli ilk növbədə iqtisadiyyatın səmərəli inkişafından, real iqtisadi sektorların müasir səviyyədə modernləşməsindən asılıdır. İndiki mərhələdə baş verən son texnoloji quruluşa keçid, texnoloji bazanın keyfiyyətcə yaxşılaşdırılması və yenilənməsi, istehsalın səmərəliliyinin və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması ilə yanaşı, əhalinin həyat keyfiyyətini artırmaq və ekologiyanı yaxşılaşdırmaq məqsədi daşıyır. Müasir şəraitdə mövcud ekoloji problemlərin həlli və davamlı inkişafın əsas istiqaməti "yaşıl" iqtisadiyyata keçiddir [11, s. 6-13].

“Yaşıl” texnologiyalar iqtisadiyyatın bütün sahələrində tətbiq tapır. Məhdud dövlət büdcəsi ilə davamlı inkişaf məqsədlərinə çatmaq üçün təşviq siyasətinin düzgün seçilməsi olduqca mühüm şərtlərdəndir. İnkişaf etmiş ölkələrdə “dekaplinq effekti” müşahidə olunur, onun mahiyyəti ondan ibarətdir ki, “yaşıl” iqtisadiyyata investisiyaların artırılması iqtisadi artıma ekoloji ziyan vurmadan imkan verir [4, s. 92-115]. Bu təsir “yaşıl” texnologiyaların tətbiqi ilə əldə edilir. UNEP-in hesablamalarına görə, qlobal ÜDM-in 2%-i həcmində illik ətraf mühitin mühafizəsi investisiyalarını nəzərdə tutan “yaşıl” inkişaf ssenarisini həyata keçirərkən, inkişaf potensialı “adi biznes (business as usual) sxeminə görə 7 ildən sonra artım tempini vaxt və sürət baxımından üstələməlidir” [9]. BNEF-in (Bloomberg New Energy Finance) proqnozuna görə 2017-2040-cı illərdə dünyada elektrik enerjisi istehsal edən yeni güclərə qoyulan investisiyalar 10 trilyon dolları keçəcəkdir ki, bunun da 72%-i bərpa olunan enerji mənbələrinə (BOEM) yönəldiləcəkdir [15].

Yaşıl iqtisadiyyata keçidin təminatında investisiyalaşma prosesi üzrə beynəlxalq təcrübə

Dünya ölkələri arasında “yaşıl” iqtisadiyyatın inkişafını təmin edən ən çox prioritetlər Avropa Birliyi ölkələri (AB), Cənubi Koreya və ABŞ-da nəzərdə tutulur. Cənubi Koreya bu sahənin inkişafında qlobal liderlərdən biri kimi “yaşıl” nəqliyyata, alternativ su mənbələrinə, təkrar emala, sənayeyə və enerjiyə aktiv investisiyalar qoyur [12]. 1960-cı illərdən bəri Cənubi Koreya, müasir texnologiyaların tətbiqi ilə ölkə iqtisadiyyatını kənd təsərrüfatından sənaye iqtisadiyyatına çevirən

inteqrasiya proseslərinə daxil edilməsi nəticəsində inanılmaz iqtisadi artım tempinə malik oldu. Bütün bunlar isə 1980-ci ilə qədər Koreya Respublikasının xarici borclara görə dünyada dördüncü yerdə olmasına yol verdi. 1999-cu ildən hökumət investisiya mühitinin liberallaşdırılması üzrə bir sıra tədbirlər həyata keçirməyə başladı: -sahibkarlıq fəaliyyətinin yeni sahələri üzrə xarici investisiyaların qoyuluşuna əlverişli imkanın açılması; -vahid one-stop-service sistemi əsasında xarici investisiyaların qeydiyyatı üçün sadələşdirilmiş prosedur tətbiq olundu, bu da investorun bürokratik süründürməçilikdən qaçaraq bir qurumla məşğul olmasına imkan verməklə xarici investisiyaların qeydiyyatı üçün müraciət prinsipinə əsaslanır (by means of reporting); -xarici investor müəyyən bir bölgənin genişmiqyaslı layihələrinə kapital qoyduqda ikincisi xüsusi bir status qazanır ki, bu da ona yerli səviyyəli sənaye kompleksləri (foreign investment zones) kimi inkişaf edə bilən xarici investisiyalardan istifadə bölgəsi (local industrial complex) ərazisində xarici investisiyalar hazırda da həmin zonalardan istifadə etmə imkanı əldə edirlər; -xarici investisiyalar üzrə vergi ödənişlərinin müddəti uzadılıb və s.

Beləliklə, yuxarıda göstərilənlər Cənubi Koreyanın investisiya strategiyasının xüsusiyyətlərinə aid olduğu qənaətinə gəlməyə imkan verir:

- ilk növbədə xarici kreditlərdən istifadədən yararlanmaq;
- iqtisadiyyatın və hüququn inkişafının müəyyən bir mərhələsində geniş yayılmış, bu və ya digər formada və oxşar problemləri olan digər ölkələr üçün xarakterik hesab edilən milli innovasiyalara, elmi kadrlara və s., eyni zamanda onun ixracatçı ölkələrdən biri olduğu fikirlərinə güvənmək (Elektron Hökumət və s.).

ABŞ alternativ enerjinin inkişafını “yaşıl” iqtisadiyyatın əsas strategiyası olaraq seçməklə 2030-cu ilə qədər günəş qurğularından istifadə edərək enerjinin 65%-ni və istiliyin 35%-ni istehsal etməyi planlaşdırır. Belə ki, ABŞ-ın 2022-ci ildə qəbul edilmiş və təmiz texnologiyalara investisiyaları stimullaşdıran qanunu əsasında ölkədə “yaşıl” iqtisadiyyatın inkişafına milyardlarla dollar sərmayə qoyulub. Məlumatlar göstərir ki, təmiz texnologiyalara investisiyanın stimullaşdırılması üzrə qanun qüvvəyə mindiyi gündən 2025-ci ilin birinci rübünə qədər təmiz enerji və nəqliyyat texnologiyaları istehsalına ölkədə 115 milyard dollar sərmayə qoyulmuşdur ki, bu da 2022-ci ildən əvvəlki dövrlə müqayisədə 21 milyard dollardan çox investisiyanın qoyulduğunu əks etdirir [13].

Yeni ABŞ administrasiyasının gəlişi ilə yaşıl gündəmin gələcəyi qeyri-müəyyən oldu. 2025 – ci ilin 23 sentyabrında ABŞ Prezidenti D. Trump, BMT-nin Baş Assambleyasının sessiyasındakı çıxışında yaşıl iqtisadiyyatın inkişafını “ən böyük aldatma” adlandıraraq insan fəaliyyətinin iqlim dəyişikliyinə təsir etmədiyini və bərpa olunan enerjinin “hiyləgərlik” olduğunu qeyd etməklə ölkələrin karbon izlərini azaltmaq səylərini tənqid etdi. Onun sözlərinə görə, Bərpa Olunan Enerji bahalı və səmərəsizdir. Kömür, neft və qaz istifadəsini alqışlamaqla BMT və digər iqlim dəyişikliyi qruplarının proqnozlarının “səhv” olduğunu da dedi. Bu mövqe hazırkı ABŞ administrasiyasının yeraltı resursların çıxarılması və ixracını artırmaq və Bərpa Olunan Enerji (BOE) inkişafı subsidiyalarını ləğv etmək üçün daha geniş siyasət yürütdüyünü əks etdirir [9].

Buna baxmayaraq, ABŞ dövləti səviyyəsində günəş və külək enerjisinə investisiya qoyuluşu davam etdirilir. Əvvəlcədən qəbul edilmiş plana əsasən 2025-ci ildə Texas ştatında bu növ enerjilərin gücünün 11,6 GVt, Kaliforniyada isə 2,9 GVt artacağı gözlənilir. ABŞ Enerji İnformasiyaları İdarəsinin məlumatına görə, planlaşdırılan 64 GVt-lıq gücü olan yeni elektrik stansiyalarında 33,3 GVt gücə malik fotoelektrik qurğularının quraşdırılmasının təmin edilməsi nəzərdə tutulur.

Avropa İttifaqı ölkələrində “yaşıllaşdırma” davam edir. Yaşıl iqtisadiyyata investisiya yönəldilməsi dinamik şəkildə artır: 2025-ci ildə Aİ-nin aşağı karbonlu enerji, infrastruktur, şəbəkə və enerji səmərəliliyi sahələrinə qoyulacaq yatırımlarının təxminən 390 milyard dollara çatması planlaşdırılır. Aİ-yə daxil olan ölkələrin 2021-2027-ci illər üçün çoxillik büdcəsində yaşıl investisiya hədəfinin 30% təşkil etməsi vacib şərt kimi qarşıya məqsəd qoyulmuşdur. İttifaq ölkələrinin birgə siyasəti çərçivəsində 2021-2027-ci illər üçün yaşıl keçid layihələrinə investisiyanın həcminin təxminən 130,7 milyard avroya çatdırılması planlaşdırılır. 2023-cü ildən keçid rejimində olan korrektəedici karbon mexanizmi plana uyğun olaraq 2026-cı ildən etibarən tam fəaliyyətə başlayacaq.

Beləliklə, bu gün Avropa İttifaqında iqlim büdcələrinin və ekoloji tədbirlərin azaldılması müşahidə edilmir və əksinə, fərdi alətlərin düzəldilməsindən bəhs olunur, hətta investisiyaların həcminin artırılması barədə söhbətlər davam etdirilir.

Çin bu gün yaşıl iqtisadiyyatın lideri olan ölkə sayılır. Belə ki, 2024-cü ilin məlumatlarına görə, ölkə səması altında dünya enerji ehtiyatlarının 40% - dən çoxu cəmləşib və yaşıl texnologiyalara qoyulan investisiyaların həcmi 818 milyard ABŞ dolları təşkil edir və bu da 2023-cü ilin məlumatları ilə müqayisədə 20% çoxdur. 2025-ci ilin ilk 7 ayında Çindən xarici ölkələrə tədarük edilən enerji texnologiyaları və məhsullarının ümumi dəyəri 120 milyard dollara çatmışdır. Sentyabrın 24-də BMT-nin İqlim sammitinə videomüraciətində ÇXR Sədri istixana qazı tullantılarının xalis göstəricisinin 7-10% həcmində azaldılması planlarını açıqlamaqla enerji strukturunda hələlik istifadəyə verilməmiş və qazılmayan yanacağın ümumi miqdarının 30%-i keçəcəyini qeyd etmişdir. Buradan belə bir fikir formalaşdıra bilərik ki, digər Avropa İttifaqına daxil olan ölkələr kimi Çinin "yaşıl" qtisadiyyata investisiya qoyuluşunun planlarında nəzərdə tutulan sərmayənin həcmində heç bir dəyişiklik müşahidə edilməyəcəkdir. Bu da onu göstərir ki, yaşıl iqtisadiyyata keçidin inkişafı xüsusilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün vacibdir, çünki onlarda bu istiqamətli məsələlərin həlli əsas prioritetlər sırasında dövlətin qarşısında durur və onun həlli yollarının tapılması da müvafiq ixtisaslı mütəxəssislərin cəlb olunmasını, həmçinin onların bacarıq və bilik vərdişlərindən səmərəli istifadəni tələb edir.

Qlobal yaşıl iqtisadiyyat bütövlükdə inkişafa meylli olduğunu nümayiş etdirməkdə davam edir. Beynəlxalq Enerji Agentliyinin (BEA) məlumatlarına görə, 2025-ci ildə qlobal enerji investisiyalarının ümumi həcmi 3,3 trilyon ABŞ dollarına çatacaq və 2024-cü illə müqayisədə 2025-ci ildə bu sahədə real artım 2% və ya 0, 066 trilyon dollar təşkil edəcəkdir. BEA-nın məlumatında göstərilir ki, təmiz enerji investisiyalarının maliyyələşməsi həcmi (2,2 trilyon dollar) ənənəvi yanacaqların (1,1 trilyon dollar) maliyyələşdirilməsindən iki dəfə çoxdur. Lakin, təmiz enerji texnologiyalarına investisiya qoyuluşu üzrə mövcud layihələrin icra edilməsi xərclərinin istifadəsində əhəmiyyətli nəticələrin əldə ediləcəyi haqqında məlumatlar hələlik verilməmişdir.

"Yaşıl" iqtisadiyyat konsepsiyası davamlı inkişaf konsepsiyasını əvəz etmir, lakin elm adamları və bu sahədə uzunmüddətli təcrübəsi olan mütəxəssislər davamlılığın əldə edilməsinin əsasən "yaşıl" iqtisadiyyata investisiya qoyuluşunun artırılmasından asılı olduğunu qəbul edirlər. Cəmiyyət inkişaf etdikcə insanların həyat şəraitinə və keyfiyyətinə olan tələbləri təbii olaraq artır. Bu kontekstdə Rusiya yaşıl iqtisadiyyatın inkişafı istiqamətində vahid və uzunmüddətli mövqe tutmaqla onun inkişaf etdirilməsi istiqamətində tədbirlər işləyib hazırlamalı və həyata keçirilməsinə nail olmalıdır. Rusiya dövlətinin yeni texnologiyalara investisiya qoyuluşunun əsas istiqamətləri enerji səmərəliliyinin artırılmasına və karbohidrat yanacaqlarının istifadəsindən karbon izinin zərərsizləşdirilməsinə imkan verən texnologiyaların tətbiqini özündə cəmləşdirməlidir. Qeyd edilən texnologiyaların tətbiqi üçün yalnız bu sahədə proqnozlaşdırılan dövlət siyasəti nəticəsində cəlb edilən genişmiqyaslı dövlət-özəl investisiyalarının birgə tətbiqindən müsbət nəticə əldə edilə biləcəyini proqnozlaşdırmaq mümkündür. Rusiyada "yaşıl" iqtisadiyyatın inkişafına ehtiyac ölkənin 2030-cu ilədək müəyyən edilmiş sosial-iqtisadi inkişafın uzunmüddətli konsepsiyasında vurğulanır, burada ölkənin ekoloji inkişafı sahəsində federal siyasətin əsasında sosial-iqtisadi və ekoloji inkişafı "yaşıl" iqtisadiyyat şəklində birləşdirən "yaşıl" artım strategiyası olmalıdır. 2025-ci ildə Rusiyanın ÜDM-nin enerji intensivliyində 40% azalma və Bərpa Olunan Enerji mənbələrinin payının 2020-ci illə müqayisədə 1,5 %-dən 2025-ci ilin sonuna 4,5%-ə qədər artması nəzərdə tutulur. 2020-ci ildən 2024-cü ilə kimi bərpa olunan enerji obyektlərində enerji istehsalının həcmi iki dəfə artaraq 7,8 milyard KBt. saata çatmışdır. Rusiya hökumətinin təkcə hidrogen enerjisinin istehsalına 2025-ci ildə 9,3 milyard rubl ayırması onu göstərir ki, bu ölkədə BOE-nin istehsalı məqsədi ilə kifayət həcmdə vəsaitin ayrılmasına xüsusi dəqqət yetirilir [6]. Qeyd edək ki, 2025-ci ilin əvvəlində Rusiyada BOE mənbələrinin inkişafına görə külək enerjisi 3351,2 MVt, günəş enerjisi 1759,4 MVt, gücü 25 MVt-a kimi olan kiçik HES-in enerjisi 425,4 MVt və ümumilikdə 5536 MVt enerji istehsal edilmişdir. Fikrimizcə, 2025-ci ildə Rusiyanın bu enerji növlərinə 3,2 trilyon rubl

həcmində investisiya yatırması göstərir ki, bu həcmdə sərmayə “yaşıl” texnologiyaların tətbiqinin səmərəliliyinə imkan verəcəkdir.

Qazaxıstan 2010-cu ilin oktyabrında Asiya-Sakit Okean ölkələrinin Astanada keçirilən “Ətraf mühit və inkişaf” üzrə VI Nazirlər Konfransında Asiya-Sakit Okean və Avropa bölgələri arasında körpü ola biləcək və geniş bir məkanda “yaşıl” iqtisadiyyata keçməyi hədəfləyən “yaşıl körpü” təşəbbüsünü irəli sürmüş və bu təşəbbüs 2011-ci ildə BMT Baş Assambleyası tərəfindən dəstəklənmişdir. 2012-ci ildə BMT-nin Davamlı İnkişaf üzrə “RI0+20” konfransında Qazaxıstanın tərəfdaşlıq proqramı olan “Yaşıl körpü” və “Qlobal enerji-ekoloji strategiya” nəzərdən keçirilib ki, bu da “yaşıl” iqtisadiyyata keçid üçün əlverişli şəraitin formalaşdırılması üçün birgə fəaliyyət və mexanizmləri nəzərdə tutmaqla Dünya Sammitinin bütün iştirakçıları tərəfindən dəstəklənmişdir. 2013-cü ildə Qazaxıstanda “yaşıl” iqtisadiyyata keçid Konsepsiyası hazırlanmışdır ki, bu da ölkənin 2050-ci ilə qədər ətraf mühitə yüklənməsini minimuma endirmək və təbii ehtiyatların deqradasiyası nəticəsində dünyanın 30 ən inkişaf etmiş ölkələri sırasına daxil olmasını hədəfləyir [5].

Bu Konsepsiyanın 3 mərhələdə həyata keçirilməsi planlaşdırılır:

Birinci mərhələdə (2013-2020) resurslardan istifadəni optimallaşdırmaq, ekoloji fəaliyyətin səmərəliliyini artırmaq və "yaşıl" infrastrukturun yaradılması vəzifəsi qarşıya qoyulmuşdur.

İkinci mərhələdə (2020-2030-cu illər) yaradılmış “yaşıl” infrastrukturun əsasında iqtisadiyyatın suyun ehtiyatla istifadəsinin, BOE-nin tətbiqinin və qurğuların tikintisində yüksək enerji səmərəliliyi standartlarının saxlanmasının təşviq edilməsi vəzifəsi qoyulmuşdur.

Üçüncü mərhələdə (2030-2050-ci illər) “yaşıl” iqtisadiyyata keçidin “Üçüncü sənaye inqilabı”-nın prinsipləri əsasında həyata keçirilməsi qarşıya qoyulmuşdur. Mütəxəssislərin hesablamalarına görə, 2050-ci ilə qədər ölkədə “yaşıl” iqtisadiyyatın inkişafı ÜDM-in artımına əlavə 3% imkan verəcək və bu da 500 mindən çox yeni iş yerini yaratmaq, yeni sənaye və xidmət sahələrini inkişaf etdirməklə əhalinin həyat keyfiyyətini artıracaqdır [5]. Fikrimizcə, Qazaxıstan da “yaşıl” iqtisadi inkişafa nail olmağa meylli ölkələrdən biridir və son illərdə istehsal etdikləri enerjini Xəzər dənizinin dibi ilə ötürücü kabeldən istifadə etmək üçün birgə layihələrin hazırlanması və həyata keçirilməsndə razılığını verməsi bir daha onun bu növ enerjidən səmərəli istifadəyə marağı olduğunu ifadə edir.

“Qırğızıstan Respublikasının davamlı inkişafına keçid Proqramı”nın qəbul edilməsi, həmçinin BMT-nin Ətraf Mühit üzrə Assambleyasında (UNFA - 2) (Keniya) ölkə rəsmi olaraq BMT-nin “PAGE” (Partnership for action on green economy) – “Yaşıl iqtisadiyyatın maraqları naminə fəaliyyət üçün tərəfdaşlıq” təşəbbüsünə qoşulmuşdur. Bu təşəbbüs BMT-nin beş Agentliyi: BMT-nin Ətraf Mühit Proqramı, Beynəlxalq Əmək Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, BMT-nin İnkişaf Proqramı və BMT-nin Təlim və Tədqiqat İnstitutu tərəfindən yaradılmışdır. Yaşıl iqtisadiyyatın maraqları naminə fəaliyyət üçün tərəfdaşlıq (PAGE) edən ölkələrin irəli sürdüyü bu təşəbbüsə 11 ölkə (Monqolustan, Peru, Burkina Faso, Çin, Qana, Mauritius, Seneqal və Cənubi Afrika Respublikası, Qırğızıstan, Braziliya , Barbados) rəsmi tərəfdaşdır və həmin birgə tərəfdaşlıq orqanı tərəfindən bu ölkələr birbaşa dəstək alırlar.

28 iyun 2018-ci ildə Qırğızıstan hökuməti tərəfindən “yaşıl” standartlara əsaslanmalı olan “yaşıl” iqtisadiyyata keçid konsepsiyası hazırlanaraq qəbul olunmuşdur. Elə bu baxımdan da ölkə PAGE təşəbbüsü çərçivəsində iqtisadiyyatın inkişaf prioritetlərini müəyyən etmişdir. Bu prioritetlər sırasında yaşıl iqtisadiyyatın aşağıdakı 10 sahəsinin inkişaf etdirilməsi vacib şərtlərdən biri kimi qəbul edilmişdir: -yaşıl şəhərdə yaşıl nəqliyyat; -yaşıl enerji və enerji təminatı; -yaşıl kənd təsərrüfatı; -yaşıl sənaye; -yaşıl tullantı emalı; -dövlət siyasəti, yaşıl dövlət təchizatı və ekosistem xidmətlərinə ödəniş; -bioloji müxtəlifliyin mühafizəsi; -yaşıl düşüncə, yaşıl tərbiyə və yaşıl təhsil; -yaşıl iqtisadiyyatın inkişafı üçün yaşıl ivestisiyalar və davamlı maliyyələşmə; -yaşıl iqtisadiyyat üçün indikatorlar [7]. Məlumatlar göstərir ki, Qırğızıstanın enerji balansında BOE-nin xüsusi çəkisi 1,3-1,5% təşkil edir. Beləliklə, Qırğızıstanın yaşıl iqtisadiyyata keçidini əldə etməsi vacibdir və bu istiqamətdə dövlət müvafiq normativ-hüquqi sənədlər qəbul etməklə tədricən yaşıl enerjidən istifadəyə keçməyin ölkənin iqtisadi inkişafında, o cümlədən təmiz ekologiyaya nail olmaqla əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasının həllini təmin etmək olar.

Özbəkistan Respublikasında da digər ölkələr kimi koronavirus pandemiyası və iqlim dəyişikliyinin yaratdığı mənfi vəziyyətlərin yaratdığı problemlər iqtisadi artımın təmin edilməsinə daha davamlı mənbələrin və yanaşmaların, xüsusən də ölkədə "yaşıl" iqtisadiyyat və "yaşıl" iqtisadi artım üçün strateji məqsəd və tədbirlərin həyata keçirilməsi məqsədi ilə səmərəli təşkilin nəzərdən keçirilməsinin zəruriliyi vacib hesab olunur.

Özbəkistan Respublikasında uzunmüddətli dövr üçün qəbul edilmiş strategiya “yaşıl” iqtisadiyyata keçidin və “yaşıl” inkişafın təmin edilməsinin hədəf göstəricilərini müəyyənləşdirdi. Strategiyanın məqsədlərinə çatmaq üçün aşağıdakı əsas vəzifələri həyata keçirməyin zəruriliyi müəyyən olunmuşdur:

- texnoloji modernləşmə və maliyyə mexanizmlərinin inkişafı ilə iqtisadiyyatın enerji səmərəliliyinin və təbii ehtiyatlardan səmərəli istifadənin artırılması;
- qabaqcıl beynəlxalq standartlara əsaslanan “yaşıl” kriteriyaların dövlət investisiyaları və xərclərinin prioritetlərinə daxil edilməsi;
- dövlət stimullaşdırılması mexanizmlərinin, dövlət-özəl tərəfdaşlığının inkişafı, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın fəallaşdırılması yolu ilə “yaşıl” iqtisadiyyata keçid istiqamətləri üzrə pilot layihələrin həyata keçirilməsinin dəstəklənməsi;
- “yaşıl” iqtisadiyyat, o cümlədən ikitərəfli və çoxtərəfli sazişlər sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi.

Fikrimizcə, ölkədə qəbul edilmiş uzunmüddətli strategiyanın həyata keçirilməsi iqtisadiyyatın enerji səmərəliliyinin artırılması, təbii ehtiyatların qorunması və səmərəli istifadəsi, istixana qazı tullantılarının azaldılması, “yaşıl” enerjinin istifadəsinin təmin edilməsi, “yaşıl” iş yerlərinin yaradılması və iqlim sabitliyinə nail olmaq sahəsində idarəetmənin təkmilləşdirilməsinə, son nəticədə ölkə əhalisinin həyat tərzinin yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Azərbaycanda yaşıl enerji istehsalında investisiyalaşma prosesinin əsas problemləri

Azərbaycan Respublikasında yaşıl enerji istehsalına investisiya qoyuluşu onun daxili planına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təmiz enerji əldə edilməsinə çevrilməsi və beynəlxalq miqyasda isə Avropa ölkələrinə elektrik enerjisinin ixrac edilməsi hədəflərinə xidmət göstərir. Burada yalnız neft-qaz sektorunun genişləndirilməsi məqsədi ilə deyil, həm də iri yerli və xarici şirkətlərin “yaşıl enerji” əldə edilməsi prinsiplərinə əsaslanaraq investisiya qoyulmaqla emissiyaların azaldılması və fasiləsiz su istifadəsinin təmin edilməsi kimi tədbirlərin icrasını həyata keçirir.

2030-cu ilə kimi istifadəyə verilməsi nəzərdə tutulan GES və KES elektrik stansiyaları (2,250 MVt gücündə) bərpa olunan enerji payının 35,5%-ə yüksələcəyini təmin edəcəkdir. Bu, nəzərdə tutulmuş hədəfin 30% yenilənməsi ilə günəş və külək enerjisinin birgə həcmi ümumi enerji sistemimizdə onların xüsusi çəkisinin 7 dəfədən çox artmasının təmin edilməsi deməkdir. Qeyd etdiyimiz müddətdə ölkənin mühüm strateji hədəfləri sırasında 5 QVt əlavə enerji gücünün yaradılması və həmin enerjinin “Xəzər-Qara dəniz-Avropa”, “Azərbaycan-Türkiyə-Avropa” dəhlizlərindən istifadə etməklə Avropa ölkələrinə tədarük etmək, eləcə də tərəfdaş ölkələrdən (Qazaxıstan və Özbəkistandan) BOE axınını təmin edəcək “Azərbaycan-Mərkəzi Asiya” dəhlizini (yaşıl enerji) qurmaqdan ibarətdir [2]. Yuxarıda qeyd edilən dəhlizləri bir-biri ilə əlaqələndirməklə Avropaya yönəltmək mümkün olduğu halda, 2030-cu ildə ölkəmiz Asiyadan Avropaya kimi uzanan coğrafiyadakı ölkələrin yaşıl enerjiyə keçməsinə və onların geniş miqyaslı öhdəliklərinin icra edilməsinə əhəmiyyətli dərəcədə töhfə verə biləcəkdir.

Azərbaycanda bu istiqamətdə yaradılmış “Yaşıl Dəhliz Birliyi” MMC-nin iştirakçısı kimi “Azərenerji” ASC, “Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti”, “Özbəkistan Milli Elektrik Şəbəkələri” ASC birgə tərəfdaşlığı çərçivəsində icra edilən layihənin ölkələr arasındakı əməkdaşlıq səviyyəsini yeni mərhələyə çıxardığı haqqında fikirləri öncədən qeyd etmək olar. Bu baxımdan yuxarıda göstərilən birgə təşkilatlar texniki-iqtisadi əsaslandırma həyata keçirmək məqsədilə konsaltinq şirkətinin cəlb edilməsinin və məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı həcminin artırılmasını məqsədəuyğun hesab edirlər [2]. Məlumatlar göstərir ki, yaşıl enerji texnologiyalarına qoyulan investisiyanın həcmi 2023-cü ildə gün ərzində 1 milyard ABŞ dolları olacaq ki,

bu göstərici də ilk dəfə ölkəmizdə neft hasilatına çəkiləcək xərcləri üstələyəcəkdir. Proqnozlara əsasən qeyd etmək olar ki, bərpa olunan enerji istehsalına qoyulan investisiyalar 2023-2025-ci illərdəki tempə uyğun artdığı halda yaxın dövdə bütövlükdə yeni enerji sistemi yaradacaqdır ki, bu sərmayənin həcmi də 2021-ci ilə nisbətən 24% çox olacaqdır. Bu da neft-qaz sahəsi üzrə xərclərin 15% artmasını və 1 trilyon ABŞ dolları həcminə çatmasını zəruri edəcəkdir.

Azərbaycanda BOE mənbələrinin geniş miqyaslı tətbiqi göstərir ki, ölkənin enerji siyasətinin həyata keçirilməsi ən vacib prioritet istiqamətlər sırasında müəyyənləşdirilmişdir. Bu sektorda islahatların aparılmasının sürətləndirilməsi üzrə müvafiq 1209-cu Sərəncam (29 may 2019-cu il) enerji bazarında rəqabət və yaşıl enerjiyə keçid prosesinin hüquqi cəhətdən formalaşmasına təkan verdi. Bərpa olunan enerjidən səmərı istifadə üzrə qəbul edilmiş Qanun (31 may 2021-ci il) bu istiqamətdə təşviqin dəstək mexanizmlərinin formalaşması və tənzimlənməsində hüquqi-normativ baza rolunu oynayır. Ölkənin sosial-iqisadi inkişafını əks etdirən Strategiyanın əsas hədəflərindən biri kimi enerjidən istifadə səmərəliliyinin yüksəldilməsi və milli iqtisadiyyatda azkarbonlu iqtisadi inkişafın əldə olunması nəzərdə tutulur. Bu istiqamətdə Azərbaycanda cəmi gücü 1829,6 MVt elektrik stansiyalarının (ES) fəaliyyəti həyata keçirilir ki, bunlara da 65 su (gücü 1443,5 MVt), 5 külək (636,5 MVt gücündə), 9 günəş (gücü 278,2 MVt), BİO elektrik (gücü 37 MVt) və hibrid elektrik (gücü 7,3 MVt) stansiyaları daxildir ki, bunların da birgə gücünün xusisi çəkisi ümumi enerjidə 18,8%-ə bərabərdir. Həmçinin 2027-ci ilə kimi gücü 2 GVt həcmində yaşıl enerji layihələrinin istifadəsi planlaşdırılır ki, bunların da içərisində tərəfdaşlıq çərçivəsində (yerli və beynəlxalq) külək və günəş stansiyaları öz əhəmiyyətinə görə fərqlənməlidir.Bu layihə çərçivəsində “Qarabag”, “Şəfəq”, “Qobustan”, “Üfüq” və “Şəms” günəş elektrik stansiyasının (GES) (müvafiq olaraq gücləri 230 MVt, 240 MVt, 100 MVt, 50 MVt) bəziləri tikilib istifadəyə verilmiş, bəzilərinin isə ön planda tikilməsi nəzərdə tutulur. “Meqa” layihə üzrə Biləsuvarda (gücü 445 MVt), o cümlədən onun nəzdində ilk günəş panelindən istifadə olunması, Neftçalada (gücü 315 MVt) GES, o cümlədən Masdar şirkətinin Abşeron, Qarabağ rayonlarında (240 MVt gücündə) KES tikib istifadəyə verməsi regionlarda BOE-dən istifadənin vacibliyini şərtləndirir. Həmçinin, bu layihədə Asiya İnkişaf Bankının pilot layihəsi qismində Böyükşor gölünün üzərində Üzən günəş paneli (gücü 100 kVt) və s. quraşdırılıb istifadəyə verilmiş, gələcəkdə yaşıl və mavi hidrogen, az karbonlu hidrogen istehsalı imkanları araşdırılır, həmçinin “TEPPSCO” şirkəti ilə (Yaponiya) yaşıl enerji zonasının yaradılmasını gerçəkləşdirən Konsepsiya işlənilib hazırlanmış və həmin ərazidə onun prinsipləri tətbiq edilir [3].

Yuxarıda qeyd edilən layihə yaşıl enerji dəhlizləri (YED) (“Xəzər-Qara dəniz-Avropa”, “Mərkəzi Asiya-Azərbaycan”, “Azərbaycan-Türkiyə-Avropa” və “Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan” YED) timsalında yaşıl enerjinin istifadəsi, ötürülməsi və ticarətinin təşkilini özündə ehtiva edəcəkdir.

Yeraltı təbii sərvətlərə (müxtəlif enerji növlərinə) malik ölkələr sırasında Azərbaycan məhz bu istiqamətə investiyaların qoyulmasını vacib hesab edir. Bu nöqteyi-nəzərdən dövlət investorların qeyd edilən istiqamətlərə böyük həcmli investisiya yatırtmaları üçün əlverişli mühitin yaradılmasına maraqlıdır. Bu istiqamətdə Azərbaycanın qarşıya qoyduğu hədəf 2027-ci ilə kimi 2 GVt həcmində bərpa olunan enerji hasilatını 2030-cu ildə 6 GVt-a çatdırmaq və beləliklə də Azərbaycanın enerji istehsalı sahəsində inqilab etməkdən ibarətdir. Müxtəlif enerji növlərinin istehsalına sərmayə qoyan xarici və yerli investorlar əsasən bu sahədə öndə gedən Çin texnologiyasından istifadəni məqsədəuyğun hesab edirlər. Çünki bu ölkədə günəş panelləri istehsal olunur və investorlar bu məqsədli batareyaların Çin istehsalı olduğunu və onların daha çox səmərəliliyini qeyd edirrlər. Beləliklə, Çin şirkətləri yalnız xidmət və texnologiya təmin etməklə deyil, eyni zamanda Azərbaycana investisiyaların qoyulmasına da maraq göstərirlər və bu məsələ artıq ölkəmizdə davam etdirilir. Azərbaycanda keçirilən COP29 çərçivəsində üç ölkə (Azərbaycan, Qazaxıstan, Özbəkistan) arasında dənizin dibi ilə (Xəzər) enerjiötürücü kabelin çəkilib istifadə olunması məqsədilə müqavilə imzalanmışdır ki, bu da Mərkəzi Asiya, Azərbaycan və Çinin enerjiötürücü bir kabellə bağlanmasını təmin edəcəkdir. Bu istiqamətli layihələr çərçivəsində bir kabel xətti Qara dənizdən

keçərək Azərbaycandan Avropaya uzanmasını təmin edir. Qeyd edilən bu layihə, yaşıl enerjidən səmərəli istifadə dəhlizi olmaqla nəhəng potensiala malikdir. Azərbaycan çoxhəcmli külək və Günəş enerji potensialına malikdir [1]. Beləliklə, Azərbaycan istehsal edəcəyi yaşıl enerjinin ticarətini təşkil edə biləcək bazarlar, texnologiya və tərəfdaş ölkələrin tapılmasında maraqlıdır və qonşu ölkələrlə əməkdaşlıq edilmədən bu layihələrin icra edilməsi mümkün ola bilməz. Odur ki, bu prosesin təşkilində Azərbaycan yaşıl enerji istehsalı və ticarətinin təşkilinə keçiddə mühüm rol oynayır.

Yaşıl şirkətlərə yönləndirilən özəl sərmayələrə nəzarət edilməsi məqsədilə yaradılmış "Qlobal İqlim Rifahı Scoreboard"-ın məlumatına əsasən 2007-ci ildən başlayaraq günəş və külək enerjisi, geotermal, su (okean) və digər yaşıl sektorları əhatə edən sahələrə 1,248 trilyon ABŞ dolları həcmindən artıq investisiya yatırılmışdır. Bu rəqəm xüsusilə BRİCS ölkələrindən (Çin, Braziliya, Rusiya, CAR və s.), eləcə də inkişaf etməkdə olan digər ölkələrdən yuxarıda qeyd edilən sektora yönəldilmiş investisiyaların həcmini əks etdirir. Burada əsasən müxtəlif növ enerji resurslarına sahib olmaqla onu digər ölkələrin istifadəsinə daşıya biləcək fərqli tranzit xətlərindən, o cümlədən nəqliyyat (hava, quru və dəmiryolu) dəhlizlərindən yararlanmaqdan söhbət gedir. Fikrimizcə, Azərbaycanın BRICS-ə qoşulması ölkəmiz üçün də bu təşkilatın üzv ölkələrinin çox sürətlə inkişafını təmin etdiyi səviyyəyə gələcəyini dəstəkləyə bilər.

Məlumatlar göstərir ki, 2024-cü ildə BRICS ölkələrinin birgə ÜDM-i qlobal ÜDM-in 35.7%-ni təşkil etmişdir. Son onillik ərzində bu təşkilatın dünya iqtisadiyyatında xüsusi çəkisi 10.2% artmışdır. Lakin G7 ölkələrinin cəmi ÜDM-nin qlobal iqtisadiyyatda xüsusi çəkisi həmin dövrdə 9.7% azalaraq 29%-ə düşmüşdür. Bu təşkilata daxil olan ölkələrdən üçünə (Rusiya, Hindistan, Çin) ölkəmizin genişmiqyaslı iqtisadi-ticari əlaqələri, bərpa olunan enerji, neft-qaz məhsulları və s. ötürmələri (daşımaları) mövcuddur. Ölkəmizin ərazisindən keçən dəhlizlər Azərbaycana olduqca böyük həcmdə iqtisadi fayda əldə edə biləcəyini vəd edir. BRICS-ə üzv olmaq bizim ölkəmizin qeyd edilən dəhlizlərdən daha geniş istiqamətdə istifadəsinə yeni imkanlar verə bilər ki, bu da Azərbaycana sırf iqtisadi effektlə yanaşı siyasi və s. istiqamətlərdə əlverişli imkanlar yaratmasını zəruriləşdirə bilər.

Nəticə

Beləliklə, "yaşıl" iqtisadiyyat həm bütövlükdə dünya iqtisadiyyatının, həm də Azərbaycanın inkişafının əsas strateji istiqamətlərindəndir. Beynəlxalq miqyasda ölkələrin ekoloji münasibətlərinin prioritet istiqamətlərindən biri ekoloji qanunvericiliyi birləşdirməyə və uyğunlaşdırmağa, o cümlədən "yaşıl" iqtisadiyyatın inkişafına imkan verən normativ-hüquqi aktların yaradılmasıdır. Bu istiqamətdə yeni, xüsusilə də "ekoloji inkişaf texnologiyaları" texnoloji platforması dünya ölkələrində olduğu kimi Azərbaycanda da "yaşıl" iqtisadiyyatın inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, "Yaşıl" iqtisadiyyat strategiyası ölkəmizin uzunmüddətli perspektivdə dayanıqlı inkişaf modeli olmalıdır. Azərbaycanın yaşıl enerji (su, külək, hidrogen və s.) istehsalı potensialının yüksək olduğunu nəzərə alaraq, yeni layihələr çərçivəsində müxtəlif müqavilələrin bağlanılması, gələcəkdə ölkəmizə istehsal olunmuş müxtəlif enerji növlərinin ticarətinin təşkil edilməsi üçün əlverişli şərait yaratmaqla bu şəraitdən səmərəli istifadəyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Energetika Nazirliyi. Azərbaycan, Qazaxstan Özbəkistan arasında "Yaşıl dəhliz birliyi" Birgə Müəssisə. Bakı. 27.12. 2024
2. Azərbaycan Respublikası Energetika Nazirliyi. COP29-da bərpa olunan enerjiyə və onun səmərəli istifadəsinə investisiyaların artırılmasına dair. Nazirlər Dialoqu. Bakı. 12.11.2024. [Elektron resurs]: https://minenergy.gov.az/az/xeberler-arxivi/ 00393
3. Azərbaycan Respublikası Energetika Nazirliyi. Bərpa olunan enerji mənbələrindən istifadə. 12.10. 2025. [Elektron resurs]: https://minenergy.gov.az/az/ alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
4. Акулов А.О. Эффект декаплинга в индустриальном регионе (на примере Кемеровской области) // А.О. Акулов. Экономические и социальные перемены: факты, тенденции, прогноз. – 2013, -4(28), -с. 93-115

5. Зеленая экономика: реалии и перспективы в Казахстане / АО «Фонд национального благосостояния«Самрук-Қазына». 2018. – август.
6. Карина Г.М. Тенденции мировой «зеленой» экономики и перспективы «зеленых» финансов в России // Г.М. Карина. Russian Journal of Entrepreneurship. 2018, -19(6), - с. 1765
7. Концепция зеленой экономики в Кыргызской Республике “Кыргызстан-страна зеленой экономики”. Министерства Юстиции Кыргызской Республики. 28 июня 2018 года.
8. Кожемякина В. А. Экономическая сущность и виды инвестиции. Новосибирск.2021, -с. 19-28
9. ООН.Доклад президента США в 88-й сессии ООН. 23 сентября 2023 года
10. 3-1.Abdrasulova S., Abdrasulova Zh. Problems and Prospects of Investing Green Economy in Kyrgyzstan // S. Abdrasulova, Zh. Abdrasulova. Bulletin of Science and Practice. Moskow. 2024, -10(2), -pp.432-437
11. Selishcheva T.A. “Green” economy as a model of sustainable development of the EAEU countries // T.A. Selishcheva. The Eurasian Economic perspective: Problems and solutions. 2018, -№ 3, -c.6-9
12. World Energy Investment 2025. URL: https://www.iea.org/reports/world-energy-investment-2025/european-union
13. Why Now Could Be The Right Time To Go Green With Your Investments. URL: https://www.investopedia.com/going-green-with-your-investments-11744567
14. Zhilina I.Yu. The results of the Climate change conference in Glasgow 2021 // I.Yu. Zhilina. Economic and Social Problems of Russia. – 2022, - № 1, - pp. 111-132
15. https://about.bnef.com/insights/clean-energy/new-energy-outlook/

Рахиба Халил кызы Абдулгасанова
Нахчеванский Государственный Университет,
Преподаватель, докторант
E-mail: abdulhasanovarahiba@gmail.com

Концептуальные проблемы международного опыта в процессе инвестирования, обеспечивающие переход к "Зеленой" экономике

Резюме

Цель исследования - выявить важность спроса на осуществление определенного процесса трансформации для достижения устойчивого экономического развития, в частности на привлечение крупных инвестиций для обеспечения перехода к "зеленой" и низко углеродной экономике. Обоснована необходимость использования странами различных механизмов поддержки и стимулирования в привлечении частных инвестиций наряду с государственными инвестициями в эту сферу.

Методология исследования - проведение сравнительного анализа, синтеза, обобщения, сравнительного анализа и т.д. С целью выявления факторов, обусловливающих важность инвестирования в исследовательскую работу. его методы были использованы.

Прикладная значимость исследования - сформулированы различные практики и подходы к оценке инвестиций в период перехода к зеленой экономике в странах мира. Полученные результаты могут быть использованы при исследовании проблем данного направления.

Результаты исследований - "Зеленая" экономика являясь основным стратегическим направлением экономического развития мира и Азербайджана, на международном уровне выявляет необходимость создания нормативно-правовых актов, позволяющих развивать "зеленую" экономику как приоритет экологических отношений стран. Принятая в Азербайджане стратегия "зеленой" экономики, являясь моделью устойчивого развития нашей страны в долгосрочной перспективе, позволит максимально эффективно использовать

потенциал производства зеленой энергии, создавая благоприятные условия для заключения различных контрактов в рамках новых проектов и организации в будущем торговли разнооб-разной произведенной энергией.

Оригинальность и научная новизна исследования-критерии повышения выработки новых видов энергии для осуществления процесса инвестирования в международных рамках определены и подробно проанализированы. Определены основные проблемы процесса инвестирования в производство новой энергии для различных стран, в том числе Азербайджана, и предложены пути их решения.

Ключевые слова: зеленая экономика, устойчивое развитие, процесс инвестирования, производство новых видов энергии, стратегические направления.

Rahiba Khalil Abdulgasanova
Nakhchivan State University, Lecturer, Doctoral student
E-mail: abdulhasanovarahiba@gmail.com

Conceptual problems of international experience in the investment process, ensuring the transition to a "Green" economy

Summary

The purpose of the study- is to identify the importance of demand for a certain transformation process to achieve sustainable economic development, in particular, to attract large investments to ensure the transition to a green and low-carbon economy. The need for countries to use various mechanisms to support and stimulate private investment, along with public investment in this area, is substantiated.

Research methodology-conducting comparative analysis, synthesis, generalization, comparative analysis, etc. In order to identify the factors that determine the importance of investing in research work, his methods were used.

The applied significance of the study-is the formulation of various practices and approaches to assessing investments during the transition to a green economy in the countries of the world. The results obtained can be used in the study of problems in this area.

Research results - The "green" economy, being the main strategic direction of the economic development of the world and Azerbaijan, reveals at the international level the need to create regulatory legal acts allowing the development of the "green" economy as a priority of environmental relations between countries. The strategy of the "green" economy adopted in Azerbaijan, being a model of sustainable development of our country in the long term, will make it possible to maximize the potential of green energy production, creating favorable conditions for concluding various contracts within the framework of new projects and organizing trade in various produced energy in the future.

The originality and scientific novelty of the research - the criteria for increasing the production of new types of energy for the implementation of the investment process within the international framework have been defined and analyzed in detail. The main problems of the process of investing in the production of new energy for various countries, including Azerbaijan, are identified and ways to solve them are proposed.

Key words: green economy, sustainable development, investment process, production of new types of energy, strategic directions.